S-60
26.01.09

**"İl ərzində dünya və Avropa çempionatlarında, birinçiliklərində, kubok yarışlarında mükafata layiq yer tutmuş idmançıların, onların şəxsi məşqçilərinin və yığma komandaların baş məşqçilərinin mükafatlandırılması qaydaları haqqında"**

---

Azərbaycan Respublikasının Nazirlər Kabinetinin 27 mart 2000-ci il tarixli, 57 nömrəli qərarına istinad edərək

**ƏMR EDİRƏM:**

1. İl ərzində idmançılar və onların şəxsi məşqçiləri iştirak etdikləri beynəlxalq rəsmi yarışlarda göstərdikləri nəticələrə görə 15 ölkə komandasının iştirakı və hər fərdi proqramda 10 ölkənin idmançısının iştirakı olduğu halda mükafatlandırılsınlar.
2. Ölkəmizdə fəaliyyət göstərən idman növləri üzrə federasiyalar idmançıların iştirak etdikləri yarışların protokollarını yarışlar başa çatdıqdan sonra 10 gün ərzində İdman şöbəsinə təqdim etsinlər.
3. İdman növləri üzrə yığma komandaların baş məşqçiləri yığma komanda idmançısı böyüklər arasında keçirilən dünya və Avropa çempionatlarında I yer tutduqda şəxsi məşqçiyə verilən pul mükafatı məbləğində mükafatlandırılsınlar.
4. İdman şöbəsinə tapşırılsın ki, bu əmrin idman növləri üzrə respublika federasiyalarına çatdırılmasını təmin etsin.
5. Bu əmrin icrasına nəzarət nazir müavini İ.İsmayılova həvalə edilsin.

AZƏRBAYCAN RESPUBLİKASI GƏNCLƏR VƏ İDMAN NAZİRLİYİ
ÜMUMİ ŞÖBƏ

**Nazir** **A.Rəhimov**

Əsli ilə düzdür